Adımız məfkurəmizdir
21-27 dekabr 2021-ci il
Türküstan
www.turkustan.az

# Bakı Bələdiyyə Teatrı “Nizami Gəncəvi ili” çərçivəsində “Sonsuz Tanrı məhəbbəti”nə sığındı

Xədicə Qiyas



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə 2021-ci ilin ‘Nizami Gəncəvi İli” elan edilməsi münasibətilə ölkəmizdə silsilə tədbirlər planı həyata keçirilməkdədir.***

***Bakı Bələdiyyə Teatrı ‘Nizami Gəncəvi ili” çərçivəsində ‘Sonsuz Tanrı məhəbbəti”(-Xəmsə əsasında) tamaşasını geniş tamaşaçı auditoriyasına təqdim etdi.***

***Qeyd edək ki, Nizami Gəncəvinin beş poeması -’Sirlər xəzinəsi”, ‘Xosrov və Şirin”, ‘Leyli və Məcnun”, ‘Yeddi gözəl”, ‘Isgəndərnamə” - dünya ədəbiyyatına yeni bir poetik səs, nəfəs gətirmiş və sonralar ‘Xəmsə” -’Beşlik” adı altında birləşdirilərək bu adla da Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatlarında məşhur olmuşdur.***

***Şairin geniş şöhrət qazanmış ‘Xəmsə’si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır.***

Bakı Bələdiyyə Teatrının “Xəmsə” əsasında “Sonsuz Tanrı məhəbbəti” tamaşasını hazırlaması Nizami irsindən bəhrələnməklə yanaşı, eyni zamanda böyük ədibin mütərəqqi ideyalarını təbliğ edərək xeyrin şərə qalibiyyətini nümayiş etdirməkdən ibarətdir.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Nizamişünaslıq şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Təhminə Bədəlova öz çıxışında dünya ədəbiyyatının görkəmli nümayəndəsi Nizami Gəncəvinin xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq və zəngin irsindən danışaraq bildirdi ki, dahi Nizami Gəncəvinin hikmətli sözləri, müdrik kəlamları bu gün sadəcə bədii söz örnəklərində deyil, eyni zamanda incəsənətin digər növlərində-rəssamlıqda, miniatür sənətində, musiqimizdə səslənir: “Görkəmli rejissor Mərahim Fərzəlibəyovun səhnələşdirdiyi “-Sonsuz Tanrı məhəbbəti” tamaşasında Bakı Bələdiyyə Teatrının aktyorlarının ifasında dahi şairin müdrik fikirlərini bir daha izləyəcəyik. Nizami insana sevməyi öyrədirdi. Şərq müdrikliyində bütün yaradılmışı bir qəsidəyə, insanı isə onun şah beyninə bənzədirlər. İnsan yeganə varlıqdır ki, onun yüksəliş və düşüş nöqtələri arasındakı məsafə sonsuzdur. Yəni insan öz əməyi ilə, fəaliyyətilə mələkdən üstün, heyvandan aşağı ola bilər. Nizami insanları mələkdən üstün olmağa səsləyirdi. Onun yaradıcılığında insanın mənən kamilləşməsini ideya olaraq verilir. Bütün əsərlərində bu kamilləşmə prosesi mərhələ şəklində verilərək inkişaf edirilir və sonda insan əməyi ilə peyğəmbər səviyyəsinə yüksəlir. Bu gün çox təqdirəlayiqdir ki, Mərahim Fərzəlibəyovun səhnələşdirdiyi “Sonsuz Tanrı tamaşası” yalnız bir əsərdən bəhs etmir, əksinə Nizami Gəncəvi yaradıcılığını əhatə edir. İnanıram ki, bu tamaşa hər birinizdə dolğun təsəvvür yarada biləcək”.



Müdafiə Nazirliyinin polkovniki, Əməkdar incəsənət xadimi Abdulla Qurbani bildirdi ki, “Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əiliyevin sərəncamı ili 2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsi nəticəsində ölkədə keçirilən silsilə tədbirlər bu xeyirxah niyyətə xidmət etdi: “Nizami Gəncəvi böyük mütəfəkklirdir, insanları mənəvi kamilliyə səsləyirdi. Onun ədəbi qəhrəmanları vətəni, torpağı sevirlər və vətən, torpaq sevgisi uğrunda canlarından keçməyə hazırdırlar. Gənclərimizin mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin daha da yüksəldilməsində, onların milli dəyərlərimizə, ənənələrimizə yiyələnməsində dahi şairin yaradıcılığı əvəzolunmaz bir vasitədir. Hər bir gənc ömründə heç olmasa bir dəfə öz Vətəni uğrunda, torpağı uğrunda qəhrəmanlıq nümunəsi göstərməli, yeri gələrsə, bu amal uğrunda canından, qanından keçməyi bacarmalıdır. Nizami Gəncəvinin cavanlara ünvanladığı bu misralarında deyildiyi kimi:

**Cavansan, şir kimi cəsarətin var,**
**Tacidar olmağa ləyaqətin var.**
**Ölkəni fitnədən xilas edərək,**
**Qüdrətini göstər bir dəfə görək.**



Görkəmli sənətkar Amaliya Pənahovanın ömür-gün yoldaşı, həmkarı Yusif Muxtarovla birgə yaratdığı, müraciət etdiyi əsərlərlə “Döyüşən teatr” kimi tanınan Bakı Bələdiyyə Teatrının Nizami Gəncəvi yaradıcılığına müraciət etməsi, görkəmli rejissor Mərahim Fərzəlibəyovun “Xəmsə” əsasında “Sonsuz Tanrı məhəbbəti” tamaşasını səhnələşdirməsi Nizami yaradıcılığığa böyük bir töhfədir”.

Tamaşanı səhnələşdirən rejissor Mərahim Fərzəlibəyov yaradıcı fəaliyyəti boyunca artıq ikinci dəfədir ki, Nizami Gəncəvi yaradıcılığına müraciət edir. İlk dəfə 80-ci illərdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Nizami Gəncəvi yaradıcılığından bəhrələnmiş, ikinci dəfə isə Bakı Bələdiyyə Teatrında “Xəmsə” əsasında “Sonsuz Tanrı məhəbbəti” tamaşasını hazırlayıb.

Mərahim Fərzəlibəyov deyir ki, “Xəmsə” nin içindən seçimlər edərək onları bir tamaşada hazırlamq böyük zəhmət tələb edir: “Bunun üçün ilk öncə “Xəmsə” oxumaq, ordakı hadisələrə hakim olmaq və bu günlə səsləşən formada bir tamaşa hazırlamaq, əlbəttə ki, böyük məsuliyyətdir. Təqribən 900 il əvvəl yaşayıb yaratmış Nizami Gəncəvinin əsərləri hər dövrün nəbzini tutur, hər dövr üçün öz müasirliyini qoruyub saxlayır. Bu tamaşada yenilik ondan ibarət oldu ki, Nizami Gəncəvinin dinlə bağlı fəlsəfəsini açmağa çalışdıq. Bildiyimiz kimi, Nizami dövründə çox böyük filosoflar - Sokrat, Aristotel, Platon olub. Böyük şair bu filosofların hər birini tanıyıb və yaradıcılığını izləyib. Ancaq o, həmişə deyib ki, yer üzündə mənim pərəstiş etdyim insan Məhəmməd peyğəmbərdir. Mən bir rejissor kimi bütün bunları əsas götürərərk Nizaminin peyğəmbəri vəsfi və insanların dini əqidəsi, kamilləşmə dövrü kimi məqamlara üstünlük verdim. İnsanoğölu inanır ki, Allaha itaət edəndə, Ona dua edəndə bütün işləri xeyirli olacaq, çətinlikllərlə mübarizə apara biləcək. Belə bir inanc insanoğlunu gücləndirir, mənən kamilləşdirir. Məhz bu səbəbdən tamaşanı “Sonsuz Tanrı məhəbbəti” adlandırdım və tamaşada Nizaminin dini kəlamlarına geniş yer verdim”.

Portret obrazlar yaratmaq hər aktyora nəsib olmaz. Bu baxımdan görünüş, səs etibarilə, aktyorluq talantı ilə diqqəti çəkmək, bütün bunlar hamısı sadəcə şans, uğur məsələsi deyil, sənətkarların yeni nəsil aktyorlara olan etmadından irəli gəlir.

Görkəmli aktrisa Amaliya Pənahovanın belə bir obrazlar üçün kəşf etdiyi Tural Əhməd bu baxımdan bəxti gətirmiş aktyorlardan hesab olunur.

Onun səhnə mədəniyyəti, səhnə əxlaqi yüksək olduğu qədər də, obraza hakim olması rola təsdiq olunduğu andan başlayır. Hətta “Sonsuz Tanrı məhəbbəti” tamaşasının hələ məşq prosesində öz obrazı ilə yanaşı, ümumi olaraq tamaşada hadisələrə necə hakim olması, tərəfmüqabillərinin ifasını hiss etdirmədən həyəcanla izləməsi, bütün bunlar hamısı ondan xəbər verirdi ki, Azərbaycan teatrında ustad sənətkarların davamçısı kimi öz yolunu, öz cığırını açan bir aktyor yetişib.

Tural Əhməd deyir ki, Nizami roluna təsdiq olunduğu vaxt, ondan əvvəl dahi şairin obrazını yaratmış akltyorların heç birinin ifasına baxmayıb: “Bəlkə də ona görə həmin rolların təsirinə düşmək istəmədim. Tural Əhməd kimi özüməməxsus bir Nizami yaratmaq istədim. İnanıram ki, istər mənim ifam, istər aktyor yoldaşlarımın ifası, ümumiyyətlə isə tamaşada əməyi keçən bütün yaradıcıların gördüyü iş maraq doğuracaq. Çünki tamaşanın hazırlanmasında böyük əmək sərf etmişik”.

***Tamaşa üçün seçilmiş musiqinin təsiri altında Bakı Bələdiyyə Tetrının ‘Sonsuz Tanrı məhəbbəti” tamaşında bir araya gələn aktyorların səhnəyə gəlişi, Nizami fəlsəfi fikirlərinin ardıcıllığını qoruyarq onun insanlıq haqqında olan nəsihətlərini bir daha eşitmək, 900 il əvvəl yazılan fikirlərin ardınca addımlamaq və hər dövrün nəbzini tutan dahi şairin işığına sığınmaq məhz həmin gecənin payına düşürdü.***

***Tədqiqatçılar deyir ki, Nizami Gəncəvinin vətəni dünya, milləti insanlıqdır. Dahi şair dilindən, dinindən və millətindən asılı olmayaraq ədalətsizliyi, zorakılıq və zülmkarlığı, kibri, hiyləgərliyi insanoğlunun uca əxlaqına yaraşdırmayıb, onları mənəvi kamilliyə səsləyib.***

***Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə 2021-ci ilin ‘Nizami Gəncəvi İli” elan edilməsi və ölkəmizdə bu istiqamətdə tədbirlər planının həyata keçirilməsi böyük şairin yaradıcılığına olan yüksək qiymətdir və təqdirəlayiq hesab olunur.***

***Bakı Bələdiyyə Teatrı da ‘Nizami Gəncəvi ili” çərçivəsində tədbirlər planından geridə qalmadı və ilin yekun tamaşası olaraq ‘Sonsuz Tanrı məhəbbəti tamaşası ilə geniş tamaşaçı auditoriyası qarşısında öz mənəvi borcunu yerinə yetirmiş oldu.***

## HAŞİYƏ

***Bakı Bələdiyyə Teatrı 2021-‘Nizami Gəncəvi ili” çərçivəsində keçirəcəyi yekun tamaşa – ‘Sonsuz Tanrı məhəbbəti”***

***Quruluşçu rejissor və səhnələşdirəni, Xalq artisti Mərahim Fərzəlibəyov,***

***quruluşçu rəssam İlham Əsgərov, musiqi hissə müdiri Nazim Əbidov, işıqçı rəssamı Tərlan Ələsgərli, kostyum sexinin müdiri Leyla Əkbərova, dizayn işləri üzrə tərtibatçısı Elnur Əliyevdir.***

***Tamaşada iştirak edirlər: Nizami Gəncəvi - Tural Əhməd. Qızıl Aslan - Tural baxış, Zülfiyyə Məmmədova - Afaq, Səmayə Sadıqova-(Əməkdar artist) - Qarı, Əhməd Salahov(Əməkdar artist) - Sultan Səncər, İsmayıl Atakişiyev - Vəzir, Şaxzadə Babayeva(Əməkdar artist) - Dayə, Rafiq İbrahimov(Əməkdar artist)-Qoca, Məmmədağa Əlicanzadə- Oğlan, Sözçülər: Hüsniyyə Mürvətova-(Əməkdar artist), Toğrul Rza, Ülviyyə Rza, Elçin Muradov, Günel Həmidova, Əzizə Həşimova.***

## HAŞİYƏ

***Bakı Bələdiyyə Teatrı 1992-ci ildə Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Ulu öndər Heydər Əliyevin ideyası və dəstəyi əsasında görkəmli teatr və kino xadimləri, Xalq artistləri Amaliya Pənahova və Yusif Muxtarov tərəfindən yaradılmış və yarandığı gündən bu günə kimi saysız-hesabsız səhnə əsərləri ilə milli teatr mədəniyyətini Azərbaycanda, eyni zamanda dünya ölkələrində təbliğ edir.***

***Teatrın səhnəsində müxtəlif qəhrəmanlıq ruhunda olan səhnə əsərlərinə - ‘Ölülər”, ‘Nadir şah”, ‘İnsan və iblis”, Mənim Ərdəbilim”, ‘Dəli Domrul”, Dönüş” və s. həyat verib.***

***Bakı Bələdiyyə Teatrı yarandığı gündən Azərbaycan və dünya klassiklərinin pyeslərini uğurla səhnələşdirmiş, vətənpərvərlik, qəhrəmanlıq, millətçilik ruhunda olan əsərlərə geniş vermişdir.***

***Bu illər ərzində teatrın repertuarında Cəlil Məmmədquluzadənin, Nəriman Nərimanovun, Mirzə Fətəli Axundovun, Nazim Hikmətin, Əziz Nesinin, Cəfər Cabbarlının əsərləri, eləcə də müasirlərimizdən Anarın, Elçinin, Əmir Pəhləvanın və başqalarının əsərləri yer tutub.***

***Müharibə şəraitində yaşadığımız bu illər ərzində Bakı Bələdiyyə Teatrı tez-tez cəbhə bölgələrinə səfər etmiş, teatrın kollektivi ilə birgə Azərbaycan ordusunun qarşısında qəhrəmanlıq ruhunda olan əsərlərlə çıxışlar etmişdir. Eləcə də xarici ölkələrdə azərbaycançılığı təbliğ etmiş,***

***işğal olunan Qarabağ torpaqlarının müdafiəsi uğrunda mübarizə xarakterli səhnə əsərləri ilə çıxışlar etmişdir.***



Oxu, oxut, abunə ol!